# Fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 10,6 faiz artıb

2015-ci il yanvar ayının 1-nə olan statistikaya əsasən, 2014-cü il ərzində Dövlət Sosial Müdafiə Fondu tərəfindən əlavə olaraq 284 961 sığortaolunana fərdi şəxsi hesab açılıb. 2014-cü ilin əvvəli ilə müqayisədə Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 10,6 faiz artıb. Beləliklə də Azərbaycanda fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 2 976 318 nəfərə yüksəlib. DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 59,01 faizi (1 758 006 nəfər) kişi, 40,99 faizi (1 218312 nəfər) isə qadındır.

Bu barədə fondun ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumatda o da qeyd olunur ki, fərdi şəxsi hesabı olanlar arasında 30 yaşa kimi olan sığortaolunanlar üstün-



lük təşkil edir. Göstərilən yaş kateqoriyalarına aid olan şəxslər ümumi sığortaolunanların 24,6 faizini (733 871 nəfər) əhatə edir. Bundan başqa, fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 23,8 faizini (708 450 nəfər) 30-40 yaş aralığında olan şəxslər, 21,4 faizini (636 805 nəfər) 40-50 yaş aralığında olan şəxslər, 20,3 faizini (604 787 nəfər) 50-60 yaş aralığında olan şəxslər, 9,9 faizini (292 405 nəfər) 60 yaşdan yuxarı olan şəxslər təşkil edir.

Xatırladaq ki, fərdi uçot-Azərbaycan Respublikası qanunvericiliyinə uyğun əmək pensiyalarının və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır. 2006-cı il 01 yanvar tarixdən tətbiq olunan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əmək pensiyaları fərdi hesaba toplanan pensiya kapitalına əsasən hesablanır.

**Mustafa KAMAL,**
**"Respublika",**